Ölkə başçısı cənab İlham Əliyevin Azərbaycan təhsilinə göstərdiyi diqqət və qayğısından danışan nazir, həmçinin son illər İsmayıllı rayonunda təhsil sahəsinqə qazanılan nailiyyətləri müsbət qiymətləndirib.

Sonra rayon mədəniyyət evində təhsil işçilərinin iştirakı ilə müşavirə keçirilib. Müşavirəni giriş sözü ilə açan İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nizami Ələkbərov bildirib ki, son beş ildə rayonda 12 yeni məktəb binası tikilib, 23 məktəb Təhsil Nazirliyinin hesabına əsaslı təmir edilib və builki məzunların 242-si müxtəlif ali məktəblərə qəbul olunub.

Müşavirədə çıxış edən təhsil naziri Misir Mərdanov tədris ili ərzində rayonun iki müəlliminə ölkə Prezidenti tərəfindən “Əməkdar müəllim” adının verilməsini, İsmayıllının pilot rayonlarından biri seçildiyini, burada məktəblərin təchizatının xeyli yaxşılaşmasını, şagirdlərin dərslik və dərs vəsaitləri ilə təminatının qənaətbəxş olmasını qeyd edib və keçirilən sınaq imtahanlarının nəticələri barədə məlumat verib. Misir Mərdanov eyni zamanda İsmayıllı rayon təhsil işçilərinin qarşısında duran vəzifələrdən də danışıb.

Açılış mərasimində millət vəkilləri Ərəstun Cavadov, Novruzəli Aslanov, Təhsil Nazirliyi və İsmayıllı Rayon İcra Hakimiyyətinin nümayəndələri, təhsil işçiləri, müəllim və valideynlər də iştirak ediblər.